# “GƏLƏCƏYƏ ÖN SÖZ”

## IV. AMAL VƏ ƏMƏL SAVAŞI: DƏYƏRLƏR, PROBLEMLƏR

## 2. Mənlik - mənəvi məkanın məzmunu

***Professor Qulu Məhərrəmli dəyərlər, eləcə də milli-mənəvi problemlərlə bağlı mübarizəsini istər ekran-efir vasitəsi ilə, istərsə də mətbuatla - yazısı ilə birbaşa aparır. Onun dinlənilməsinin, oxunmasının əsas səbəbi məsələyə köklü şəkildə və həm də açıq yanaşmasıdır. Görünür, millətin mənəvi inkişafında, öz gücünü toparlamaqla problemlərini həll etməkdə dəyərlərin, milli-mənəvi problemlərin əhəmiyyətini yaxşı bildiyindən bu məsələyə həmişə xüsusi önəm verib. Yazılarını müvafiq faktlarla tənzimləməklə düşüncələrə birbaşa təsir edə bilən Qulu Məhərrəmli üçün insanların öz mənliklərini hifz etməsi elə milli kimliyini hifz etməsi deməkdir.***



*Əli Rza XƏLƏFLİ*

***Mənim Qulu adında tək bir dostum var. Heç kimin yanında sıxıldığını, çəkindiyini görməzsən, adının Qulu olduğuna baxma. Əxlaqın qulu, kişiliyin qulu, millətin qulu!!! Bu zamanədə çoxları nəfsinin qulu oldu, amma mənim dostum nəfsini yenə bildi, pulu, rüşvəti yenə bildi. Çoxları əllərini rüşvətin odu ilə isitdiyi vaxtda sən çevrənə topladığın gənclərə təmənnasızlığın və əxlaqın gücünü göstərə bildin. Belə dostun olmasını kim istəməz ki?!***

***Deyirlər istedadlı adam xəmir kimidi... Necə sıxırsan sıx, hardan olsa, yol tapıb çıxacaq... Niyə axı gərək elə sıxasan? Olmaz ki, yol açasan? Qulu Məhərrəmli özü sıxılsa da, çoxlarına yol açdı!.. Bir zamanlar min əziyyətlə özünə açmışdı bu yolu, indi ardıcıllarına, davamçılarına açır.***

**Rövşən ALMURADLI, rejissor**

*“Dəyərlərə daş atanlar”* (22.06.2013) adlı yazısının ikinci yarımbaşlığı elə dəyərlərə daş atanların kimliyini göstərmək üçün güzgüyə çevrilir; bəli, onlar Qulu Məhərrəmlinin təbirincə desək, xalqda milli əskiklik kompleksi yaradanlardır. Doğrudur, sərt başlıq, ondan da sərt ikinci izah edici başlıq istər-istəməz dəyərlərə daş atanların kimliyi haqqında oxucunu düşünməyə vadar edir. *“Bu müzür ünsürlər kimlərdir və biz onları haralarda axtarmalıyıq?”*. Zənnimcə, Qulu Məhərrəmlinin yazısı həm belə ünsürlərin özlərini göstərir, həm də onları haralarda axtarmağın məkanını işarələyir.

Biz küçədə, mağazada, müxtəlif tədbirlərdə, məmur qəbullarında, sosial problemlərimizin həlli ilə bağlı müraciət etdiyimiz idarə və müəssisələrdə ən müxtəlif tip insanlarla qarşılaşırıq. Əlbəttə, iş yerlərimiz, işlə əlaqədar ünsiyyətdə olduğumuz adamlar da istisna deyil. Ən üstün insani keyfiyyəti ayaq altına atmağa hazır olan birinin düşüncəsi həyatın isti-soyuğundan keçməmiş bir gəncin mənəviyyat güzgüsünü daşla vurub çilikləmiş kimi olur. İlk dəfə gəncin düşüncəsində formalaşmış müqəddəs dəyər anlamına dəyən zərbə onun varlığında, mühitində ömürlük sağalmayacaq psixoloji travmaya çevrilir.

Adını çəkdiyimiz yazıda müəllif həyatından, daha doğrusu, iş fəaliyyətindən yaddaşında qalmış bir acınacaqlı durumu diqqətə çəkir. Vaxtı ilə işlədiyi telekanallardan birində qarşılaşdığı mənzərə xatirə tipində olsa da, yazıya gətirilir. Verilişdə xatırlanası obrazlar Ziya Bünyadov, Azərbaycan Xalq Cümhuriyyətinin liderləri, yazıçı Bayram Bayramov və digər bir çox məqamlar təftişçi tərəfindən amansız ixtisar edamına məruz qalır. Qulu Məhərrəmli şəxsi nüfuzundan istifadə edərək ixtisarları bərpa etməyə çalışsa da, mümkün olmur.

Bu cür dəyərin, xalq üçün formalaşmış milli-mənəvi təyinedicilərin hər birinə nifrətli münasibətin köklərini aramağa çalışır. Amma görünür həmin şəraitdə heç nəyi düzəltmək mümkün olmur. Biz indi həmin münasibəti ikrahla xatırlayırıq. Azərbaycanın sırada göstərilən görkəmli simalarının hər birinin yubileyləri prezident sərəncamı ilə qeyd olunur. Onların irsi öyrənilir. Bu özü də dəyərlərə qarşı çıxan ünsürlərə elə tarixin istehzası deməkdir. Qulu Məhərrəmli doğru sual qoyur. Şər qarşısında dizini qatlamayan neçə-neçə ziyalıya, elm adamına, söz və qələm sahibinə davamlı hücumları Qulu Məhərrəmli qətiyyən təsadüfi hesab etmir. Doğru olaraq yazır: *“Mən hələ tarixə əl uzadanları, M.Füzuliyə, M.F.Axundova, Mirzə Cəlilə, M.Ə.Sabirə, R.Rzaya, S.Vurğuna və başqa dəyərlərə hücum çəkənləri bir yana qoyuram. Bizi tarixən mağmun, fərasətsiz, düşüncəsiz kimi təqdim edənlərlə işim yoxdur. Amma bu kampaniyanı kimlərin aparmasında mütləq bir əmma var. Siz çevrənizə baxın, Azərbaycan xalqının tarixində parlaq iz qoymuş, onun milli-ictimai şüurunu oyatmış, könül rübabını dilləndirmiş, bədii-elmi düşüncəsini formalaşdırmış, ona heçdən bir müstəqil dövlət bəxş etmiş şəxsiyyətlərə qarşı çıxanlar kimlərdir? Doğrudanmı xəmiri bu torpaqla yoğrulanlar millətə və onun dəyərlərinə belə “ləzzətlə” həqarət edə bilər?”*. Üslubuna uyğun olaraq yenə kəskin suallardan istifadə edir. Çünki yaxşı bilir, bəzən adamlara nəyisə hərfi-hərfinə izah etməkdənsə, onları kəskin suallar qarşısında qoymaq daha yaxı effekt verir.

Daha başqa cür necə yanaşasan ki, xalqın tarixi taleyində işıq olan insanları qaralamaq qəsdində olanları həqiqətə yaxınlaşdırasan. Axı onların təbiətləri elə daşlaşıb ki, heç bir istilik cərəyanı ilə əriyə bilmir. Özlərinin zərərli mövqelərini davamlı şəkildə yeni nəsillərə ötürürlər. Görünür, yaramazlığın da varislik imkanları var.

Qulu Məhərrəmli qətiyyən tənqidin əleyhinə deyil. Elə bu gün dəyər hesab etdiyimiz böyük şəxsiyyətlərin özləri də cəmiyyətin qaranlıqlarını qovub dağıtmaq üçün tənqiddən silah kimi istifadə ediblər. Ancaq onların məqsədi bu tənqidlə cəmiyyəti məhv etmək, parçalamaq, dağıtmaq olmayıb. Onlar milləti məhv edən keyfiyyətləri göstərməklə qərəzləri ifşa etmək, qərəzlilərin toruna düşən avam kütləni ayıltmaq məqsədi güdüblər. Qulu Məhərrəmlinin sağlam mövqeyini öz düşüncəsi ilə həzm etmək düşünmək imkanı olanlar üçün çətin deyil: *“Əlbəttə, istənilən tarixi şəxsiyyəti və tarixi hadisəni obyektiv təhlil və tənqid etmək olar, şəxsiyyətin bu prosesdəki roluna müxtəlif prizmalardan yanaşmaq da normaldır. Amma millətə sevgi yoxdursa, bu, ittihamdan o yana getməyəcək, naqislik burulğanında ilişib qalacaq. M.Ə.Sabir də, Mirzə Cəlil də, Üzeyir bəy və başqaları bu milləti sevərək tənqid edirdi. “Əkinçi” qəzeti ilə bizə ictimai göz vermiş Həsən bəy Zərdabi də qaranlıq bir mühitdə geriliyə səbəb olan savadsızlığı və nadanlığı içindən qovrula-qovrula tənqid edirdi, amma eyni zamanda bu qaranlığı işıqlandırmaq üçün ortaya şam da yandırıb qoyurdu. Çünki onların tənqidi milləti aşağılamırdı, əksiltmirdi, milli natamamlıq kompleksi yaratmırdı...”*. Bununla müəllif bir daha gösətirir ki, xalqda milli əskiklik kompleksi yaradanlar millətin ucalmağını istəməyənlərdir. Görünür, mənfəət, mənsub olduqları zərərli idoloji istinadlar onların gözlərini elə tutub ki, həqiqətləri nəinki dərk etmək, heç qəbul etmək belə istəmirlər.

Qulu Məhərrəmli bu istiqamətdə mübarizəsini daha sərt, daha kəskin mövqedən digər yazılarında da davam etdirir: “Şərəfsizlik virusu” (28.09.2013). Bu yazıda Qulu Məhərrəmli öz əməlləri ilə mənəviyyatının çürüklüyünü göstərən, vecsizliyini aşkara çıxaran insanların təibətindəki xisləti virus adlandırır. Məlumdur ki, hər bir virus bioloji varlıq olaraq yayılmaq gücünə malikdir. Bu gün bəşər nəslini təhlükə qarşısında qoyan Korona virusunun da gücü göz qabağındadır. Bütün tibbi-sosial personal səfərbər olunsa də, bu virusun qarşısın almaq mümkün olmur. Əlbəttə, bəşər nəsli bu təhlükədən çıxacaq, ancaq zərərli mənəvi viruslar var ki, onlardan xilas olmaq həmişə çətin olur.

Əlbəttə, biz müəyyən gerçəklik əhatəsində olaraq cəmiyyətdən, siyasi mühitdən gələn mənfi təsirlərlə də qarşılaşırıq. Ancaq insan mənəviyyatını çürüdən virusu təkcə cəmiyyətin, ictimai mühitin ayağına yazmaq olmaz. Qulu Məhərrəmli özü daha sərrast deyir: *“... hər şeyi cəmiyyətin və mühitin üzərinə də yıxmaq olmur, o səbəbdən ki, insanın öz xisləti, tamah dişi arxasında gizlənmiş niyyətləri, əcdadlardan gəlmə vəhşi instiktləri, istək və ehtiyacları var. Əxlaq, abır-həya və ictimai məsuliyyət olmayanda insan şərəf hissini unudur, ən yaramaz davranışları özünə rəva bilir”*. Hər halda müəllif cəmiyyətin sadə adamlarından çox media və siyasət adamlarını qınağa çəkir. Onları “şərəfsizlik uçurumuna aparan yollarda” birləşdirən məqamları da göstərir. Bu səbələr sırasında vəzifə hərisliyi, pul, ev, firavanlıq istəyi və s. də yer alır. Müəllif bu yazısında yaxşı tanıdığı birinin obrazını yaradır. Onun cəmiyyətdəki əvvəlki mövqeyi ilə sonrakı zamandakı görünüşü bir-birindən çox fərqlənir. Müəllif belə qənaətə gəlir ki, onu adi şərait dəyişməyib. Görünür, təbiətində şərəfsizlik olduğu üçün şərait yaranan kimi o həmin girdaba düşməli olur.

Müəllif bioloji virusa o qədər də təhlükəli hal kimi baxmır, amma mənəviyyat virusu onun üçün xüsusi diqqət tələb edən bir obyektdir. Cəmiyyətdəki bütün zədələnmələrin kökünü ictimai virusla bağlayır.

“Virus” (26.11.2016) adlı yazısını məhz cəmiyyətin mənəvi mühitində dəhşətli çatlar yaradan problemin mahiyyətini açmağa həsr edib: *“Həkim qızdırmalı xəstəni müayinə edib kağız-kuğuzunu diqqətlə nəzərdən keçirdikdən sonra, çox vaxt qaşlarını çatıb qayğılı səslə belə bir diaqnoz qoyur: “Virusa yoluxmusunuz, gərək ciddi müalicə olunasınız”. Faylları açılmayan, yaxud açanda ilan-qurbağa çıxan kompüterə baxdıqdan sonra təcrübəli usta da eyni nigaranlıqla başını bulayıb: “Vəziyyət ağırdır, kompüterə virus düşüb, gərək təmizləyək”, - deyir. Virusla bağlı daha bir unikal siuasiya da var: idarə və müəssisələrə daraşaraq onları iflic etmək. Məsələn, hər hansı probleminin düzələcəyi ümidi ilə bir idarə və müəssisənin qapısını döyən, lakin işi alınmayan yaşlı adamlar, adətən narazı qaldıqları həmin qurumu ənənəvi leksikonla “yağladıqdan” sonra belə bir cümlə də işlədirlər: “Elə bil xarabaya virus düşüb”.*

(Davamı 6-cı səhifədə)

# 2. Mənlik - mənavi məkanın məzmunu

*(Əvvəli 4-cü səhifədə)*

*"Elə bil xarabaya virus düşüb"*. Maraqlı yanaşmadır, dəqiq yanaşmadır. Cəmiyyət hadisələri ilə təbiət hadisələrinin oxşar və fərqli tərəflərini özünəxas müşahidələrlə yazıya gətirən müəllif istər-istəməz bizi də özü ilə birgə maraqlı bir aləmə dəvət edir. Az qala hansısa bir adada mövcud olan 21-ci əsrin mənəvi mühitindən və təbiətindən kənar özlərinəxas sivilizasiya qurmuş canlıların aləminə aparır.

Müəllif bu qeydlərində virusla bağlı tibb elminin nailiyyətlərini, öyrəndiklərini də yada salır. Hətta bioloji virusun təbiəti ilə bağlı elə məlumatlar verir ki, bunları bilmək hər kəs üçün faydalıdır. Ən azı öz səhhətinin təhlükəsizliyi üçün. Ancaq təbiət hadisəsinin cəmiyyətə müdaxiləsini şərh edə-edə asanlıqla cəmiyyət hadisələrinə keçir. Yaxın keçmişi gözlərimizin önünə gətiririk. Rabitə və Texnologiyalar Nazirliyi, bu sistemə yoluxmuş virusun mənbəyi olan MTN hadisələri... birər-birər gözlərimizin önündən keçir. Ən əsası odur ki, baş verən hadisələr gözlərimizin önündə cərəyan etsə də, sanki bunları görməmişik. Halbuki, görürdük, duyurduq. Elə bil ki, baş verənləri adi, qanunauyğun hal kimi qəbul edirdik. Əslində bunun özü də elə virusa yoluxmanın bir formasıdır. Qulu Məhərrəmli bütün bunlar açıqlamaqla yaşanmış hadisələri ibrət dərsi kimi yazıya gətirir. Gələcəkdə bu tipli hadisələrin qarşısını almaq üçün həyəcan təbili çalır. Görünür, belə həyəcan təbili bütövlükdə yoluxmuş mühit üçün təsirli olmur. Halbuki, bu hadisələrdən sonra dəhşətli virusa yolxumuş icra başçılarının həbs serialı başlandı. Məlum oldu ki onlar dəhşətli dərəcədə tamahkarlıq, dartıb-dağıtmaq, kimliyindən asılı olmayaraq hər kəsin əlində nə varsa çəkib çıxarmaq, tamahkarlıq bəlasına yoluxublar. Müəllif qeydlərində Milli Məclisdə deputatların maaş tələbini xatırladır. Və buna qətiyyən pis hal kimi baxmır. Yəni deputatlar 1750 manatla yaşamağın mümkün olmadığını bildirir. Maaşlarının artırılmasını tələb edirlər. Ancaq onların bu tələbləri istər-istəməz bizim düşüncəmizdə daha ciddi başqa assosiasiyalar yaradır. Minimum əmək haqqının umuduna qalan, aşağı həddə pensiya alan adamların güzəranını kim yaxşılaşdırmalıdır və onların hüquqlarını cəmiyyətin gündəminə kim gətirməlidir? Yaxud uşaq pulunun verilməməsi... Bu məsələnin ciddiliyini, əslində, hər kəs yaxşı bilir. Ancaq uşaq pulunun verilməsinin əksinə gedənlərin də az olmadığını nəzərə alsaq, virusun haralara, kimlərə qədər yoluxduğunu da təsəvvür etmək olar.

Sosial kartları mənimsəyən icra başçılarının sağlam ruhda olmadığını təsəvvür edə bilirik. Demək, sağlam ruhda deyillərsə, orqanizmləri də sağlam deyil. Yeyicilik, dağıdıcılıq az qala dözülməz həddə çatıb. Təbabət sistemi iflasa uğramaq həddindədir. Vaxtı ilə humanist, insanpərvər zümrə kimi gördüyümüz həkimlər virusun mutasiyası nəticəsində az qala yırtıcıya çevriliblər.

...Hər halda ölkənin siyasi rəhbərliyi virusun təhlükəlilik həddini gördü və bunun qarşısını almaq üçün ən sərt tədbirlərə əl atdı. Müəllif isə sözünün sonunda bir daha cəmiyyəti, insanları xəbərdar edir: "*Virusa yoluxmuş xəstənin də, virusun təsiri ilə proqramları pozulmuş kompüterin də dərdinə əlac etmək mümkündür. Birində dərman, o birisndə antivirus kara gəlir. Dərd "sosial virus"un dərdidir, çünki onun meydanı geniş, təsiri güclü, çarəsi isə yoxdur*". Bax, burada müəlliflə razılaşmaq olmur. Vaxtı ilə belə viruslar, yəni, ictimai mahiyyət daşıyan viruslar ABŞ-da da , Qərbi Avropada da olub. Ancaq demokratik mühit, ictimai nəzarət əsas çıxış yolu kimi problemin həllinə təsir göstərib və cəmiyyət sağlamlaşmaq yoluna çıxıb.

***20.09.2021***